**Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın üzvlərinin 2021-2023-cü illər ərzində fəaliyyəti barədə**

**HESABAT**

2021-ci il dekabr ayının 27-də ETSN yanında İctimai Şuranın növbəti tərkibinin formalaşması üçün seçkilər keçirilmişdir. Keçirilən seçkilər nəticəsində 15 nəfər vətəndaş cəmiyyətinin nümayəndəsi İctimai Şuraya üzv seçilmişdir.

2022-ci ilin fevral ayında İctimai Şuranın seçilmiş üzvləri arasında keçirilmiş səs vermə nəticəsində şuranın sədri, sədr müavinləri (2 nəfər) seçilmiş və şuranın katibi təyin edilmişdir.

Şuranın bütün üzvləri öz təmsil etdikləri Qeyri Hökümət Təşkilatların layihələrində və vətəndaş cəmiyyətli institutları tərəfindən təşkil edilmiş müxtəlif tədbirlərdə fəal iştirak etmiş, şuranı layiqincə təmsil etmişlər.

Şura üzvlərindən biri şuranın üzvü olaraq əsasən Qəbələ rayonunda fəaliyyət göstərən ətraf mühit sahəsində çalışan Qeyri Hökümət Təşkilatının sədri və eko-fəal kimi şuranın rayonda olan nümayəndəsi olaraq yüksək fəallıq göstərmişdir.

2021-ci il dekabrın sonunda İctimai Şuranın tərkibi seçildikdən sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyi Muxtar Babayev şura üzvləri ilə tanışlıq görüşü keçirmişdir.

Bundan əlavə 2022-ci ilin fevral ayında şura üzvləri səs vermə ilə sədr, sədr müavinləri və katibi seçdikdən sonra nazir ilə şuranın idarə heyəti arasında da şuranın iki illik fəaliyyətinin planlanması və müzakirəsi mövzusunda nazirlə yenidən görüş keçirildi və Ekologiya və Təbii Sərvətlər Naziri Muxtar Babayev şura sədri və müavinlərinə fəaliyyətlərində uğurlar arzulayaraq nazirlik tərəfindən hər bir dəstəyin verilməsini bildirdi.

Həmçinin öz tövsiyələrini də şuranın rəhbərləri ilə paylaşdı. Bunun ardınca 2022-ci ilin yaz və yay aylarından başlayaraq şura üzvləri aprel və iyul aylarında iclaslar keçirərək şuranın reqlamentini qəbul etdi və gələcək planları müzakirə etdilər. Şuranın fəaliyyətini effektiv həyata keçirmək üçün işçi qrupların formalaşması qərarı verildi. İşçi qrupların hər birinə 3-4 şura üzvü daxil edilməklə 4 istiqamətdə işçi qrupları yaradıldı.

14 iyul 2022-ci il tarixində Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azəriqaz İstehsalat Birliyi yanında fəaliyyət göstərən ictimai şuraların təşəbbüsü ilə adı çəkilən qurumların ictimai şuralarının birgə görüşü keçirildi.
Görüşün əsas məqsədi meşəətrafı yaşayış məntəqələrinin qazlaşdırılması perspektivləri, meşələrin qırılmasının iqlim dəyişikliklərinə təsiri, bu istiqamətdə gələcək birgə fəaliyyətlərin müzakirəsindən ibarət idi.

28 iyul 2022-ci il tarixində Meşəətrafı yaşayış məntəqələrinin qazlaşdırılması perspektivləri və bu istiqamətdə birgə fəaliyyətin müzakirəsi mövzusunda Ekologiya və Təbii Sərvətlər Nazirliyi və “Azəriqaz” İstehsalat Birliyi yanında fəaliyyət göstərən İctimai Şuralar arasında növbəti görüş keçirildi.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, “Azəriqaz” İB-nin baş direktoru Ruslan Əliyev və hər iki qurumun struktur bölmələrinin rəhbər şəxsləri də görüşdə iştirak etmişdilər.



Görüş zamanı respublika ərazisində ətraf mühitin, xüsusilə meşə sahələrinin qorunması və onların bərpası məqsədilə meşə sahələrinə yaxın yerləşən, təbii qazdan istifadə etməyən yaşayış məntəqələrində mərhələli şəkildə müvafiq infrastrukturun qurulması istiqamətində perspektiv fəaliyyət planının hazırlanması və planın reallaşdırılması üçün İctimai Şuralar tərəfindən dəstək göstərilməsi məsələləri müzakirə olunmuşdur.

Tədbirdə vətəndaş cəmiyyəti nümayəndələrinin təklif və tövsiyələri dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb, ictimaiyyətin məlumatlandırılması məqsədilə koordinasiyalı fəaliyyətin həyata keçirilməsi və belə görüşlərin gələcəkdə də davam etdirilməsinin vacibliyi vurğulanıb.

Qaz xəttinin çətin relyef şəraitində çəkilməsi zərurəti meşəətrafı məntəqələrin qazlaşdırılması zamanı yüksək maliyyətutumlu layihələrə çevrildiyindən “Azəriqaz” İB və Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında yaradılmış İctimai Şuralar Baş nazir Əli Əsədova müraciət etmişlər.

Müraciətdə deyilir:

“Azərbaycanda kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi”nin tədbirlər planının 4.1.5-ci bəndinə görə texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəsiz qiymətləndirilən yaşayış məntəqələri, o cümlədən meşəətrafı kəndlər alternativ enerji növləri ilə təmin olunmalıdır.

Respublikamızın meşə fondu sahəsi 1213,7 min hektar olmaqla ümumi ərazinin 14%-ni, meşə ilə örtülü sahələr isə 1046,76 min hektardır ki, bu da ölkə ərazisinin 12%-ni təşkil edir. Ölkəmizdə adambaşına düşən meşə sahəsi qonşu Gürcüstan Respublikası ilə müqayisədə təxminən 3 dəfə azdır. Göründüyü kimi, regionun qonşu ölkələrilə müqayisədə Azərbaycan azmeşəli ölkədir və meşələrin artırılması, mühafizəsi, o cümlədən meşə təsərrüfatından beynəlxalq təcrübələr əsasında davamlı və səmərəli istifadə edilməsi prioritetdir.

Meşəətrafı ərazilərdə odun tədarükünün ildən ilə çətinləşməsi, mümkünsüzləşməsi səbəbindən təbii qazın verilməsi tələbi ilə əlaqədar vətəndaşlar tərəfindən “Azəriqaz” İB yanında fəaliyyət göstərən İctimai Şuraya daxil olan müraciətlərin sayı da artmaqdadır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və SOCAR “Azəriqaz” İB yanında fəaliyyət göstərən İctimai Şuraların üzvləri olan vətəndaş cəmiyyəti insitutlarının nüSmayəndələri yuxarıda qeyd olunan yaşayış məntəqələrinin yaxın

gələcəkdə hökumət səviyyəsində maliyyə vəsaiti ayrılmaqla qazlaşdırılmasını məqsədəuyğun hesab edərək bu istiqamətdə köməklik göstərilməsini sizdən xahiş edir”.

Bunun ardınca 2022-ci ilin dördüncü rübündə payız aylarında şura üzvləri əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təşkil olunan müxtəlif layihələrin ekoloji qiymətləndirilməsi ilə əlaqədar ictimai dinləmələrdə iştirak etmişlər (tədbirlərin siyahısı Əlavə 1-də təqdim edilmişdir).

Burada onlar ictimaiyyət nümayəndələri olaraq təqdim olunan layihələrlə bağlı vətəndaş cəmiyyəti fəalları olaraq öz fikirləri və təkliflərini səsləndirmişlər.

Şuranın fəaliyyətinin ən gözə çarpan və effektiv dövrü 2022-ci ilin dekabr ayında başladı. Məlum olduğu kimi Azərbaycan hökuməti tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər bir neçə qurumun nümayəndələrindən ibarət mütəxəssislər qrupu Rusiya Sülhməramlı Kontingentinin Azərbaycanda müvəqqəti yerləşən bölmələrinin nəzarətində olan ərazilərdə, əsasən Qızılbulaq və Dəmirli yatağında monitorinq keçirilməsi üçün bu bölgələrə göndərildi. Lakin orada həmin dövr yaşayan erməni təxribatçıları tərəfindən bu monitorinqin aparılmasına maneə törədildi. Nəticədə Rusiya Sülhməramlı Kontingenti bu monitorinqin keçirilməsini təmin etmək öhdəliyini üzərinə götürsə də bunun icrasını həyata keçirə bilmədi. Buna etiraz olaraq Azərbaycan Vətəndaş Cəmiyyətinin nümayəndələrindən ibarət böyük qrup Laçın-Xankəndi yolunda etiraz aksiyası keçirmək üçün Şuşaya yollandı. ETSN İctima Şuranın üzvləri arasında üzvlərin demək olar ki, yarısından çoxu uzun müddət, günlərlə 138 gün davam edən həmin aksiyada iştirak etdilər və xüsusi fəallıq göstərdilər. Şura üzvləri oradakı könüllülərlə birlikdə etiraz aksiyalarında iştirak etmələri ilə bərabər müxtəlif yerli və beynəlxalq media qurumlarına bu məsələlərlə bağlı çox saylı müsahibələr verdilər. Ölkə gündəmində şura üzvlərinin müsahibələri geniş miqyasda KİV-də yayınlandı.



Bu fəaliyyətin nəticəsi olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2022-ci ildə ətraf mühit sahəsində fəaliyyətlərə görə fərqlənmə medalı şuranın sədrinə təltif olundu. Həmçinin 2023-cü ilin may ayında ekoloqların peşə bayramı münasibətilə şuranın 7 üzvünə nazirlik tərəfindən fəxri fərman verildi.

Bununla yanaşı şura üzvlərinin bir neçəsi Ermənistanın ərazisində mədən sənayesi nəticəsində ətraf mühitə olan təsirlərə etiraz əlaməti olaraq bir çox bəyanatların

hazırlanmasında və səsləndirilməsində fəal iştirak etmişlər. Bu fəaliyyət də 2023-cü ildə intensiv olaraq davam etdirildi.

2023-cü ilin may ayında Qırmızı kitabın yeni nəşrinin təqdimatında da şuranın sədr və müavinləri iştirak etdi. Şura sədri konfransda çıxış etdi və Qırmızı kitabın ərsəyə gəlməsi və bununla bağlı problemlərə aid məsələlərə toxundu.

Bundan əlavə 2023-cü il ərzində şura üzvləri ölkənin müxtəlif bölgələrində keçirilən layihələrdə fəal iştirak etmişlər.

Şuranın sədri, müavini və şura üzvlərindən biri 2023-cü ilin dekabr ayında Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən COP 28 - iqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyasının tərəflərinin görüşündə də Vətəndaş Cəmiyyətini təmsil etmək üçün iştirak etdilər.




Bu tədbirin nəticəsində məlum oldu ki, Azərbaycan 2024-cü ildə COP 29 tədbirinə ev sahibliyi edəcək. Bununla əlaqədar şuranın yeni tərkibi seçilərkən, indiki tərkibdən olan üzvlərdən yeni tərkibdə fəaliyyətəni davam etdirənlərin olacağı təqdirdə COP 29 ilə bağlı da fəaliyyətlərdə aktiv iştirak etməyi şura üzvləri qarşısına məqsəd qoymuşdur. İctimai Şuranın üzvlərinin iştirak etdiyi bir çox ictimai dinləmələrin siyahısı hesabata əlavə olunur.

1 may 2022-ci il tarixində uşaqlar arasında "İqlim dəyişikliyi, yoxsa təbiətin qəzəbi?" adlı rəsm müsabiqəsi elan edilmiş, elanda təbiətin mühafizəsi, iqlim dəyişikliyində insanların rolu və ətraf mühitlə bağlı məlumatlar verilmişdir. 1 iyun uşaqlar günündə müsabiqənin qalibləri Şura sədri tərəfindən diplom və mükafatlarla təltif edilmişdir.

İştimai Şura üzvlərinin əksəriyyəti qrant müsabilərində ekoloji maarifləndirmə, ətraf mühitin mühafizəsi istiqmətində layihələrə üstünlük vermişlər

İctimai Suranın fəaliyyətə başladığı gündən ETSN ictimai sura instagram və FB səhifələri yaradılmışdır. 2021-ci il 01 yanvar tarixindən bu günə qədər 150-dən çox vətəndaş müxtəlif sikayətlərlə İctimai Şuraya müraciət edilmişdir. Vətəndaşın kimliyi anonim saxlanılaraq

məsələyə aydınlıq gətirilməsi və problemin aradan qaldırılması ilə bağlı ETSN-nə dərhal müraciət edilmişdir.

Qazax, Oğuz, Lənkəran, Astara, Balakən rayonlarından və Bakı ətrafı qəsəbələrdən vətəndaş müraciəetlərinə əsasən monitorinqlər həyata keçirilmiş, mövcud vəziyyət haqqında ETSN dərhal məlumat vərilmişdir.

İctimai Şuranın Sədr müavini tərəfindən Umummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə “Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız” kəlamını rəhbər tutaraq sədr müavinin rəhbərlik etdiyi ictimai birliyin nəznində “Təbiət keşikçiləri gənclər hərəatı” yaradılmışdır.

Layihə çərçivəsində İctimai Şuranın sədri və layihənin rəhbəri tərəfindən (60 nəfər layihə çərçivəsində digərləri isə onlayn platforma üzərindən) ümumilikdə 210 gənc arasında ətraf mühitin mühafizəsində insanın rolu və təbiəti qorumağın vacibliyi haqqında maarifləndirilmə işi aparılmışdır.

İctimai Şura tərəfindən təbiət keşikçiləri və ETSN nümayəndələrinin görüşü keçirilmiş, təbiət keşikçilərinin məqsəd və mərami nazirlik tərəfindən yüksək qiymətləndirilmişdir. Təbiət keşikçilərinin fəaliyyətinin gücləndirilməsi və daha çox gəncin təbiəti qoruyan olması məqsədi ilə tədbirlərimiz davam edir.

Həyata keçiriləmiş layihələr arasında Azərbaycanda ilk dəfə “Təmiz Oyunlar” beynəlxalq ekokönüllülük layihəsinin həyata keçirilməsini və nümayəndəsi şurada təmsil olunan ictimai birliklərdən birinin ölkə üzrə rəsmi nümayəndə statusunu almasını qeyd etmək olar.

**ƏLAVƏ 1**

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Ekoloji Ekspertiza Agentliyində keçirilmiş ictimai dinləmələr (ETSN yanında İctimai Şuranın üzvləri iştirak etmişlər)

1. **19 yanvar 2023-cü il**. Azərbaycan Respublikası ərazisində və ərazi sularında karbohidrogen ehtiyatlarının kəşfiyyatı, hasilatı, nəqli, saxlanması və emalı sahəsində qanunvericiliyin və ekoloji normativ sənədlərin tələblərinə riayət edilməsinə dair

2. **02 fevral 2023-cü il.** “Kristal Bakı” MMC tərəfindən Bakı şəhəri, Yasamal rayonu ərazisində yerləşən "Qanlı Göl" ətrafında həyata keçirləcək layihənin ekoloji qiymətləndirilməsi.

3. **21 fevral 2023-cü il.** “Abşeron göllərinin taleyi necə olacaq?” mövzusunda ictimai dinləmə

4. **23 fevral 2023-cü il.** “Kristal Bakı” MMC tərəfindən Bakı şəhəri, Yasamal rayonu ərazisində yerləşən "Qanlı Göl" ətrafında həyata keçirləcək layihənin ekoloji qiymətləndirilməsi.

5. **04 aprel 2023-cü il**. Qaradağ rayonu Lökbatan qəsəbəsi 28 may küçəsi ilə D.Bünyadzadə küçəsinin kəsişməsində yaşayış binalarının tikintisi üçün ayrılmış torpaq sahəsindəki yaşıllıqların götürülməsi barədə “Babək-94” MMC tərəfindən daxil olan müraciət.

- Xətai rayon A.İsmayılov küçəsi ev 12 ünvanında olan yaşıllıqların götürülməsi barədə "Sevil" MMC tərəfindən daxil olan müraciət.

6. **06 aprel 2023-cü il.** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən həyata keçirilən **"**Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun 4 zolağa genişləndiliməsi layihəsinin (Lot-2, Lot-3, Lot-4; 0+000-76+658 km) Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi" hesabatı.

7. **11 may 2023-cü il.** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən həyata keçirilən **"**Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun 4 zolağa genişləndiliməsi layihəsinin (Lot-2, Lot-3, Lot-4; 0+000-76+658 km) Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi" hesabatı üzrə ictimai dinləmə.

8. **26 may 2023-cü il.** Zəngilan rayonunun inzibati ərazisində Oxçuçay çayı üzərində "Azərenerji" ASC tərəfindən inşası həyata keçirilən "Şayıflı", "Sarıqışlaq", "Zəngilan" və "Cahangirbəyli" kiçik su elektrik stansiyalarının binasının, suqəbuledicisinin və basqılı su borusunun tikintisi ilə əlaqədar **"**Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi" hesabatı

9. **24 oktyabr 2023-cü il.** Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi layihəsinin ətraf mühitə təsirlərinin qiymətləndirilməsi.

10.
- Zəngilan rayonunun inzibati ərazisində Oxçuçay çayı üzərində "Azərenerji" ASC tərəfindən inşası həyata keçirilən "Şayıflı", "Sarıqışlaq", "Zəngilan" və "Cahangirbəyli" kiçik su elektrik stansiyalarının binasının, suqəbuledicisinin və basqılı su borusunun tikintisi ilə əlaqədar **"**Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi" hesabatı